

Aydın İSMİYEV,
*Mədəniyyət və Turizm Nazirliyi Turizm şöbəsinin müdiri*

# Azərbaycan turizmi: görülən işlər, əldə edilən nailiyyətlər

**Turizm hazırda iqtisadiyyatın ən vacib istiqamətindən biri kimi, əhatə dairəsinə, maliyyə imkanlarına görə dünyanın bir çox ölkələrində aparıcı sənaye sahələri ilə rəqabətə girir.**

Qeyd etmək lazımdır ki, turizmin təşkili və inkişafı üçün ölkənin əlverişli təbii imkanları ilə yanaşı, ümumi iqtisadi göstəriciləri də mühüm şərtdir. Çünki bu sahə cəmiyyətin iqtisadi, sosial və mədəni inkişafının nəticəsi kimi yaranıb, mənəvi zənginlik və rekreasiya ehtiyaclarının ödənilməsinə xidmət edir.

Bu baxımdan iqtisadiyyatın digər sahələri ilə müqayisədə dünya bazarına çıxıb rəqabət aparmaq üçün turizm sahəsində Azərbaycanın imkanları çox yüksəkdir. Zəngin mədəniyyətimiz, çoxəsrlik tariximiz, təbii sərvətlərimiz, rəngarəng iqlimimiz bizə imkan verir ki, ölkəmizi yaxın zamanlarda dünyanın ən cazibədar turizm mərkəzlərindən birinə çevirək.

Bunun üçün bir şansımız da Azərbaycan dövlətinin bu sahəyə böyük diqqət ayırması, turizmin inkişafını iqtisadiyyatın qeyri-neft sektoru üzrə prioritet istiqaməti elan etməsidir. Bunu son illər ölkədə turizmin təşviqi ilə bağlı görülən işlər, aparılan islahatlar, qəbul edilən dövlət proqramları, normativ-hüquqi bazanın təkmilləşdirilməsi bir daha sübuta yetirir.

2010-cu ildə "2010-2014-cü illərdə Azərbaycanda turizmin inkişafına dair" Dövlət Proqramının qəbul olunması, 2011-ci ilin ölkə prezidenti tərəfindən Azərbaycanda "Turizm ili" elan edilməsi, bununla əlaqədar geniş Tədbirlər Planının təsdiqi, bu sənədlərdə nəzərdə tutulan işlərin əksər hissəsinin artıq həyata keçirilməsi onu deməyə əsas verir ki, ölkəmizdə turizm sənayesi yeni inkişaf mərhələsinə adlayıb.

Azərbaycanda turizmin inkişaf etdirilməsi, ölkənin çoxəsrlik mədəniyyətinin, turizm potensialının xarici ölkələrdə təbliği ilə bağlı Mədəniy-

yət və Turizm Nazirliyi tərəfindən məqsədyönlü fəaliyyət həyata keçirilir.

Nazirlik tərəfindən aparılan təbliğat işləri (ölkəmizin beynəlxalq turizm sərgilərində iştirakı, dünyanın aparıcı televiziya kanallarında Azərbaycanın turizm potensialını əks etdirən reklam çarxlarının yerləşdirilməsi), habelə beynəlxalq təşkilatlarla, o cümlədən BMT-nin Ümumdünya Turizm Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, GUAM, İƏT və başqa beynəlxalq qurumlarla sıx əməkdaşlıq nəticəsində Azərbaycan artıq dünyada yeni bir turizm məkanı kimi tanınmağa başlayıb.



Ölkəmizə daha çox əcnəbi turistin cəlb olunması üçün müvafiq təbliğatın, o cümlədən dünyanın nüfuzlu telekanallarında reklam-tanıdım çarxlarının nümayişi və s. işlərin gücləndirilməsi ilə bərabər, bu sahədə normativ-hüquqi bazanın təkmilləşdirilməsi diqqət mərkəzindədir. Azərbaycana gəlmək istəyən əcnəbilərin turizm şirkətləri vasitəsilə viza almasını asanlaşdırmaq məqsədilə "Ölkədən getmək, ölkəyə gəlmək və pasportlar haqqında" qanuna əlavə və dəyişikliklərin qəbul olunması bu qəbildən atılan addımlardan biridir.

Vizaların elektron qaydada rəsmiləşdirilməsi qaydası ölkəmizə gəlmək istəyən əcnəbilərin rahatlığı və prosesin şəffaflığı baxımından mühüm yenilikdir. Çünki bundan sonra ölkəsində Azərbaycan səfirliyi olmayan əcnəbi viza almaq üçün üçüncü ölkəyə üz tutmaq məcburiyyətində qalmayacaq. Onun müraciət etdiyi turizm şirkəti rahat şəkildə elektron yolla viza almaq üçün sənədləri üçüncü ölkədəki Azərbaycan səfirliyinə çatdıracaq.

■

Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq Mədəniyyət və Turizm Nazirliyi Ümumdünya Turizm Təşkilatı (BMÜTT), Avropa Şurası, İslam Konfransı Təşkilatı (İKT), Müstəqil Dövlətlər Birliyi (MDB), Demokratiya və İqtisadi inkişaf naminə - GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT), İqtisadi Əməkdaşlıq Təşkilatı (İƏT) və s. beynəlxalq təşkilatlarla ötən il də turizm sahəsində çoxtərəfli əməkdaşlığın təşkil edilməsi, mövcud proqramlara qoşulma, beynəlxalq tədbirlərdə fəal iştirakın təmin edilməsi, həmçinin yeni təklif və layihələrin hazırlanması, əməkdaşlığa dair sənədlərin imzalanması istiqamətində səmərəli və mühüm fəaliyyətini davam etdirib.

Mədəniyyət və Turizm Nazirliyi, Ümumdünya Turizm Təşkilatı (BMÜTT) və Azərbaycan Turizm Assosiasiyasının birgə təşkilatçılığı ilə "İpək Yolunun tamı: Kulinariya, Mədəniyyət və Turizm" adlı beynəlxalq konfrans keçirildi.

Bakıda Dünya Turizm Təşkilatının "Turizm statistikası sahəsində bilik səviyyəsinin artırılması Proqramı" çərçivəsində ikinci seminar gerçəkləşdi.

2012-ci ildə mədəniyyət sahəsində Azərbaycan üçün ən böyük hadisələrdən biri də "Eurovision" beynəlxalq musiqi yarışmasının Bakıda keçirilməsi oldu. Bununla bağlı nazirliyimiz tərəfindən çoxsaylı tədbirlər, layihələr reallaşdırıldı.

"Turizm haqqında" yeni qanun layihəsi hazırlanıb ictimaiyyətin müzakirəsinə təqdim olundu. Layihə ingilis dilinə tərcümə olunaraq BMT-nin Ümumdünya Turizm Təşkilatına təqdim edilib. Qurumun ekspertinin hazırlayacağı







Qanun layihəsinin yekun variantı BMÜTT ilə razılaşdırdıqdan sonra cari ilin mart ayında Mədəniyyət və Turizm Nazirliyinə təqdim olunacaqdır. Müvafiq qurumlarla razılaşdırdıqdan sonra sənəd Azərbaycan Respublikası Milli Məclisinin müzakirəsinə veriləcək.

2012-ci ildə Azərbaycanın turizm potensialını əks etdirən 45 və 60 saniyəlik reklam çarxlarının "CNN", "Euronews" və "Travel Channel" telekanallarında nümayiş olunması məqsədilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ilə adları qeyd olunan telekanallar arasında müqavilə yenilənib.

Mədəniyyət və Turizm Nazirliyi "CNN" telekanalı ilə 2005-ci ildən, "Euronews" telekanalı ilə 2006-cı ildən, "Travel Channel" telekanalı ilə isə 2008-ci ildən etibarən əməkdaşlıq edir.

"BMİ Voyager", "Business Year" jurnallarında və "MİTT" sərgisinin rəsmi kataloqunda Azərbaycanın turizm potensialına dair reklam səhifələri yerləşdirilib.

Mədəniyyət və Turizm Nazirliyi Azərbaycanı hər il müxtəlif xarici ölkələrdə keçirilən beynəlxalq turizm sərgilərində təmsil edir. Bu sərgilərdə ölkəmizin turizm imkanları ingilis, rus, yapon, fransız, ərəb, çin və alman dillərində hazırlanmış müxtəlif növ reklam-çap məhsulları vasitəsilə nümayiş etdirilir. 2012-ci ildə Azərbaycan 18 turizm sərgisində təmsil olunub. 2013-cü ildə isə bu sərgilərin sayının 22-yə çatdırılması nəzərdə tutulur.

■

Turizm xidmətlərinin müxtəlifliyinin formalaşdırılması da bizim üçün çox önəmlidir. Artıq ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm mövsümü üçün də lazımi infrastruktur formalaşdırılır. Bu yaxınlarda Qusar rayonunda Şahdağ Qış-Yay Turizm Kompleksinin tikintisinin birinci mərhələsi üzrə infrastruktur obyektlərinin açılışı oldu.

Bu kompleks 2015-ci ilədək tam həcmdə işə düşəcək. Azərbaycana gələn qonaqlar üçün çox cəlbedici bir istirahət məkanı olacaq. Kompleksdə hotel, xizək sürmək üçün imkanlar var.

İnşasına 2009-cu ilin sentyabrında başlanılan kompleks ümumi ərazisi 2058 hektar, ekoloji sistemi, təmiz flora və faunası ilə məşhur olan Şahdağ Milli Parkının ərazisində yerləşir. Kompleks dəniz səviyyəsindən 1435-2525 metr hündürlükdədir. Turizm kompleksinin əsas hissəsi isə dəniz səviyyəsindən 1640 metr hündürlükdəki təbii yaylaqda yerləşir.



Ötən il dekabrın 20-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə kompleksin birinci mərhələsi üzrə infrastruktur obyektlərinin, o cümlədən Qusar-Ləzə avtomobil yolunun, ildə 5 milyon kilovat/saat elektrik enerjisi istehsal etmək imkanına malik "Qusar-1" su-elektrik stansiyasının, "Zirvə" və "Qaya" mehmanxanalarının açılışı keçirilib. Kompleksdə süni qaryağdırma sistemi də qurulub.

Kompleksdə kommunikasiya sisteminə 35 km-lik kanalizasiya xətti, təmizləyici qurğusu olan içməli su kəməri, 29 km-lik fiber-lifli rabitə xətti, 31 km uzunluğunda 110 kv-luq elektrik xətti, 35,7 km-lik orta təzyiqli qaz kəməri daxildir. İkinci mərhələdə isə 10-14 nömrəli kanat yolları, qolf meydançası və restoranı olan klubun, 4 ulduzlu mehmanxana, həyət üçün bina, xırda mehmanxanalar, pansionat və idman qurğularının daxil olduğu "Şahdağ" Gənclər Mərkəzi, 900 nömrəlik "Relax" mehmanxana şəbəkəsi, at ferması, 200 nəfərlik diskoteka binasının

tikintisi nəzərdə tutulub. Üçüncü və dördüncü mərhələdə yol, istirahət və əyləncə yerləri şəbəkələrinin genişləndirilməsi planlaşdırılır.

Şahdağ kompleksi Azərbaycan tarixində ilk dağ-xizək turizm mərkəzidir. Kompleksin inşası qeyri-neft sektorunun inkişafını prioritet elan edən Respublikamızın iqtisadi həyatında mühüm əhəmiyyətə malikdir. Hazırda burada çalışacaq personalın hazırlanması ilə bağlı işlər davam edir. Bu məqsədlə təşkil edilmiş kurslara artıq 160 yerli mütəxəssis cəlb olunub.

■

2013-cü ildə mehmanxana biznesində bir çox yeniliklər olacaq. Məlumdur ki, hazırda turistlərin qəbulu üçün mehmanxana biznesi dinamik surətdə inkişaf edir. Hazırda respublikada 50-dək yeni mehmanxananın inşası davam edir. Son 2 ildə ölkəmizdə 5 ədəd ("Hilton Baku", "Abşeron Marriott", "Four Seasons", "Kempinskiy Badamdar" və "Jumeirah Bilgah Hotel") beynəlxalq brendli beşulduzlu hotel istifadəyə verildi. Daha birinin - "Fairmont" mehmanxanasının açılışı isə bu ilin mayında nəzərdə tutulur.

Ölkənin böyük şəhərlərində xarici qonaqları qəbul edə bilən müasir mehmanxanalar fəaliyyət göstərir və bütün turizm regionlarını əhatə edən geniş turizm xidmətləri sisteminin formalaşması istiqamətində müəyyən işlər görülür.

Hazırda Bakı şəhərində 3-4 ulduz standartlarına cavab verən kiçik və orta həcmli mehmanxanalar fəaliyyət göstərir, eləcə də bu tipli hotellərin tikintisi davam etdirilir. Bu ildən başlayaraq, üçulduzlu otellərin inşasına diqqət yetiriləcək. Çünki beş və dördulduzlu hotellərin sayı kifayət qədərdir. Onlar tam gücü ilə işləyirlər. Ona görə də bundan sonra daha aşağı ulduz kateqoriyası olan hotellərin inşasına başlanılacaq.

Bundan başqa, bu ildən artıq beynəlxalq standartlara uyğunlaşmış və Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi tərəfindən təsdiqlənmiş mehmanxanaların yeni ulduz alma qaydalarının tətbiqinə başlanacaq. Bu qaydalar kifayət qədər sərtləşib. Bu da zamanın tələbidir.

Çünki istəyirik ki, bizim mehmanxanalar və turizm şirkətləri tərəfindən təqdim olunan xidmətlər dünya standartlarına uyğun olsun. Yeni mehmanxanaların ulduz kateqoriyalarının müəyyənləşdirilməsi bu qiymətlərin daha sivil şəkildə tənzimlənməsinə imkan verəcək. Bu istiqamətdə işlər aparılır.

Hazırda Azərbaycanda 500-dən yuxarı mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir. Mehmanxanaların sayının artması qiymətlərə də müəyyən mənada təsir göstərir. Ötən iki il müddətində Azərbaycan mehmanxanalarında qiymətlər 15-20 faiz enib. Mədəniyyət və Turizm Nazirliyi qanunvericiliyə uyğun olaraq, qiymətlərin tənzimlənməsi istiqamətində müəyyən işlər görür.



**Hazırda ölkəmizdə 225 turizm şirkəti nazirliyin rəsmi lisenziyası əsasında fəaliyyət göstərir. Bütün görülən işlərin nəticəsi olaraq, Azərbaycana gələn turistlərin sayı da getdikcə artır. Ötən il ərzində ölkəmizin sərhədlərini 2 milyon 484 min 48 nəfər insan keçib. Təxmini hesablamalara görə, bunun 2 milyonu turistdir.**